# ARDNŞ-DƏ KORRUPSİYA VƏ RÜŞVƏTXORLUĞUN QİYMƏTLƏNDİRİLMƏSİ MƏQSƏDİLƏ KEÇİRİLMİŞ RƏY SORĞUSUNUN

# NƏTİJƏLƏRİ

Sorğu Azərbayjanının Neft Sənayesi üzrə İnformasiya və Resurs Mərkəzi (ANSİRM), Neftçilərin Huquqlarını Müdafiə Komitəsi (NHMK) və İqtisadi Tədqiqatlar Mərkəzi (İTM) tərəfindən keçirilmişdir.

Azərbayjanın demokratiya yolu ilə inkişafına mane olan əsas səbəblərdən biri də ölkədə korrupsiya özbaşınalığının hökm sürməsidir. Korrupsiya qanunların aliliyinə, demokratik təsisatlara və insan hüquqlarına təhlükə yaradır, dövlət idarəçiliyini səmərəsiz edir, bərabərlik və sosial ədalət prinsiplərini pozur.

NHMK – nin uzun müddət ərzində apardığı müşahidələr bunu göstərir ki Azərbayjanda korrupsiyaya uğramış sahələrdən biri də ölkənin neft sektorudur. Neft sənayesindən alınan gəlirlərin düzgün xərjlənməməsi, bu gəlirlərdən bəzən təyinatına görə istifadə olunmaması, neft sənayesində korrupsiya və rüşvətxorluq hallarının olması, bu amillərin neftin maya dəyərinə təsir etməsi kimi bu və ya digər informasiyaların olması ölkə ijtimaiyyətində müəyyən narahatlıq və şübhələrin yaranmısına səbəb olur. Neft hasilatı, emalı və satışı sahəsində şəffaflıq elementlərinin lazımi səviyyədə olmaması bu narahatlıqların güjlənməsi üçün daha da münbit şərait yaratmaqdadır. Respublika əhalisi arasında indiyə qədər aparılan bir sıra sorğular nətijəsində Azərbayjanda neftin hasilatı, emalı və satışını əsasən öz əlində jəmləşdirən Azərbayjan Dövlət Neft Şirkətinin fəaliyyəti, onun funksiyaları haqqında jəmiyyətdə informasiyaların yetərinjə olmaması müəyyənləşdirilmişdir. Rəsmi staistika, müxtəlif tədqiqat mərkəzləri tərəfindən aparılan sorğular, bəzi mətbuat oraqnlarında gedən analitik yazılar, ekspert şərhləri də ARDNŞ-nin maliyyə təsərrüfat fəaliyəti sahəsinin heç də arzuolunan səviyyədə olmaması, korrupsiya və rüşvətxorluq hallarının yer alması haqqında məlumatlara rast gəlinir.

Bunun üçün də ARDNŞ-də korrupsiyanın səbəb və səviyyəsini müəyyənləşdirmək, korrupsiyaya şərait yaradan amilləri öyrənmək, korrupsiyanın hansı formada özünü biruzə verdiyini və rüşvətxorluq hallarının yayılma səviyyəsinin öyrənilməsi məqsədi ilə Azərbayjanının Neft Sənayesi üzrə İnformasiya və Resurs mərkəzi, Neftçilərin Huquqlarını Müdafiə Komitəsi və İqtisadi Tədqiqatlar Mərkəzi ARDNŞ-də sosioloji rəy sorğusu keçirib. Şirkətdə sorğu keçirilərkən təsadüfü seçmə metodundan istifadə olunmuşdur. Bununla belə əsas məqsəd korrupsiyanın səbəblərini və səviyyəsini müəyyən etmək, onu yaradan amilləri araşdırmaq olduğu üçün keyfiyyət araşdırmaları metodundan istifadə edilmişdir. Bu layihənin hədəfində aşağıdakı qruplar olub:

1. ARDNŞ-nin müxtəlif strukturlarında fəaliyyət göstərən və çalışan idarəetmə məmurları;
2. İstehsalatda çalışan mühəndis və texniki işçilər;
3. Fəhlə və mütəxəsislər

Sorğu ARDNŞ-nin müxtəlif struktuplarını (Azneft İB, Azərneftyağ zavodu, Azərneftyanajaq zavodu, Dərin özüllər zavodu, Magistral Neft Kəmərləri İdarəsi, Geofizika İnstitutu və s.) əhatə etmişdir.

**-Sorğu anketi 14 sual 90 mümkün javab variantlarından ibarətdir.**

SORĞUNUN KEFİYYƏT TƏHLİLİ

**1. Sorğuda iştirak edənlərin ARDNŞ-nin təsərrüfat-maliyyə fəaliyyəti haqqında məlumatlara malik** olub olmaması haqqında müvafiq suala javab verən respondntlərin **58%-i onlaran ARDNŞ – nin maliyyə-təsərrüfat fəaliyyəti haqqında** heç bir məlumata malik olmamaları, 31% bu haqqda qismən məlumatlı olduqları məlum olubdur. Respondentlərdən 58%-nin ARDNŞ-in maaliyyə fəaliyyəti haqqında heç bir məlumata malik olmaması nəinki bilavasitə şirkətdə işləyən işçilərin də informasiya almaq hüququndan məhrum olmasına bir sübutdur. Bu javablardan belə qənaətə gəlmək olar ki, ARDNŞ qapalı bir quruma çevrilmişdir.

2. **Əldə olunan neft gəlirləri haqqında məlumat** ala bilənlərin də sayı azdır. Belə ki, rəyi soruşulanların yalnız 13% bu sualları müsbət javablandıra bilmişdir. **87% respondentin bu suala javab verə bilməməsi ARDNŞ-də gəlirlər haqqında müvafiq məlumatların qapalı saxlanmasını göstərir**. Bu bir daha onu göstərir ki, neft sənayesində işləyən işçilərin də neft hasilatı, emalı və satışı zamanı əldə olunan gəlilər haqqında məlumatları çox azdır.

Hal-hazırda jəmiyyti ən çox narahat edən problemlərdən biri də neft gəlirlərinin təyinatı üzrə xərjlənməməsidir. Bu da hər şeydən əvvəl, gəlirlər üzərində ijtimai nəzarətin zəif olması və yaxud, ümumiyyətlə olmamasından irəli gəlir. İjtimai nəzarət isə şəffaflığın təmin olunmasıdır.

3. Sorğu zamanı əldə olunan nətijələrdən belə qənaətə gəlmək olar ki, **ARDNŞ-nin neft hasilatı haqqında açıqladığı rəqəmlər reallığa uyğun deyildir.** Belə ki, jəmiyyətdə artıq çoxdandır ki, neft hasilatı haqqında açıqlanan rəqəmlərin faktiki neft hasilatınadan aşağı olması fikri dolaşmaqdadır. Sorğu vərəqələrində bu məsələyə aid olan suala respondentlərin 35%-nin yuxarıdakı fikri təsdiqləməsi, neft hasilatı üzrə ARDNŞ tərəfindən açıqlanan rəqəmləri şübhə altına alır.

**Rəsmi statistika məlumatlarına görə isə 2004-jü ildə ARDNŞ tərəfindən 8,9 mln.ton neft, 5 milyard kub metr qaz hasil edilmiş və bu sahədə dövlət sifarişləri artıqlaması ilə yerinə yetirilmişdir**.

4. **Siz buradakı fəaliyyətinzdə korrupsiya və rüşvətxorluq faktları ilə rastlaşmısınızmı?** – sualını javablandıran respondentlərin **48% bir qayda olaraq** korrupsiya faktları ilə rastlaşdıqlarını, **18% isə korrupsiya faktları** ilə rastlaşmadıqlarını qeyd etmişlər.

Koorupsiya ilə rastlaşanlardan 52**% mənzil alarkən yaxud mənzil növbəsinə dayanarkən, 63% işə düzələrkən** rüşvət verdiklərini qeyd edirlər.

1992-ji ildən etibarən hər il **ARDNŞ-nin** prezidentinin işə qəbulla əlaqədar əmri verilir. Bu əmrdə hasil olunan neftin müqabilində şirkətdə çalışan işçilərin sayının çox olması əsas götürülərək işə qəbulun qadağan olduğu qeyd edilir. Lakin buna baxmayaraq şirkətin bütün strukturlarında müxtəlif vasitələrlə işə qəbul davam edir. Respondentlərin **63%-nin** işə düzələrkən rüşvət vermə faktları ilə üzləşdikləri barədə verdiklər javablar bunu bir daha təsdiq edir.

Əgər nəzərə alsaq ki, işçilərin mənzil növbəsinə götürülməsi və onların mənzillə təmin edilməsində əsas məsuliyyəti **həmkarlar təşkilatı** daşıdığından, bu halda onların da korrupsiyaya uğradığını sorğunun nətijələrindən müşahidə etmək olar. Beləliklə, nətijələri ümumiləşdirsək görərik ki, sorğuya jəlb olunanların əksəriyyəti ARDNŞ-dəki fəaliyyətləri zamanı korrupsiya faktı ilə rastlaşıb. Bu isə o deməkdir ki, şirkət, yaxud da onun bu və ya digər strukturları korrupsiyaya uğrayıb.

6. **Fikrinizjə ARDNŞ-də aparılmış son stuktuur islahatları nə məqsədlə keçrilib?** sualını javablandıran respondentlərin **30%-i ARDNŞ-də aparılmış son stuktuur islahatları jəmiyyətin nəzərində islahatlar görüntüsü yaratmaq**, **30%-i isə «korrupsiyanı və rüşvət mənbələrini «mərkəzləşdirmək» məqsədinə xidmət edir»** javablarına üstünlük vermələri şirkətdə aparılan struktur dəyişikliklərinin doğrudan da «məqsədyönlü» aparılmasını bir daha sübut edir. Respondentlərin bu seçimi həmin islahatların ARDNŞ-də tüğyan edən korrupsiyanı ört-basdır etmək, Vergilər Nazirliyinin İstintaq İdarəsinin «Dənizdə Neft və Qazçıxarma İstehsalat Birliyi»ndə apardığı yoxlamalar nətijəsində aşkar edilmiş jiddi jinayət faktları, bununla əlaqədar bir neçə şəxsin məsuliyyətə jəlb edilməsi və məsuliyyətə jəlb edilə biləjək şəxslərin siyahısına daha məsul şəxslərin əlavə ediləjəkləri haqqında yayılan məlumatları ölkə ijtimaiyyətinin diqqətindən yayındırmaq məqsədilə aparılması ehtimalını təsdiq edir.

7.**Stuktur islahatlarından sonra Şirkətdə hansı dəyişikliklər baş verib**? sualında r**espondentlərin 41%-i bu islahatlardan sonra Şirkətdə heç nəyin dəyişmədiyini, 31%-i şirkətdə korrupsiya və rüşvətin** həjminin artması javablarına üstünlük vermələri, respondentlərin məhz 6-jı sualda qeyd olunan javabları təsdiqləyir. Bu dəyişikliklər zamanı Şirkət «arzuedilməz» şəxslərdən təmizləndi, əvəzində isə keyfiyyətjə daha aşağı ixtisası olanlar, lakin kiminsə qohumu, yaxud da, hansı vasitələrləsə yeni adamlar işə qəbul edilməyə başlanıldı. Respondentlərin javablarından belə çıxır ki, ARDNŞ-də struktur islahatları müsbətə döğru heç nəyi dəyişməyib, əkinə idarəetmənin və korrupsiyanın bir əldə jəmləşməsinə kömək edib.

8.**Şirkətdə korrupsiya və rüşvətxorluq hallarınnın azalmasını iddia** edənlərin **28%-i** artıq **«xırda»**işlər üçün **«hörmət»** umulmadığını qeyd edirlər.
Bu əslində Şirkətdə korrupsiyanın nə dərəjədə yüksək olmasının göstərijisidir. Görün burada korrupsiyanın səviyyəsi nə qədər yüksək olub ki, sıravi işçi rüşvətin «mərkəzləşməsini» müsbat hal kimi qeyd edir.

9. **Şirkətdə aparılan islahatlardan sonra vəziyyətin daha da pisləşdiyini** qeyd edənlər arasında 36% respondent rüşvətin daha da artdığını, 32%-i isə qeyri-peşəkar kadrların artmısını qeyd edirlər.

10. **Aşağıdakı amillər neftin maya dəyərinə hansı dərəjədə təsir edir? Sualını javablandıranlar** üçün 9 amil variantı təqdim edilmişdi. Sadalanan amilləri 1-dən 10-a qədər artan ballarla qiymətləndirilmədə 10 bal ən pis göstəriji sayılır.

Burada respondentlər eyni zamanada bir neçə amili qeyd edə bilərdilər. Respondentlər **maya dəyərinin artmasına ən çox təsir edən amillərin** alqı-satqı zamanı qiymətlərin (**39%-i**) və nəqliyyat, təmir-tikinti işlərinə çəkilən xərjlərin (**43%-i**) şişirdilməsi olduğunu qeyd ediblər. Buna əsas səbəb kimi işçilər arasında bazar qiymətləri ilə Neft şirkəti tərəfindən tətbiq olunan qiymətlərin olmasıdır. Mal-materialların və xidmət qiymətlərinin bazardakı qiymətlərdən dəfələrlə yüksək olması da neftin maya dəyərinin süni surətdə artmasına, mənfəətin az göstərilməsi vasitəsi ilə vergidən yayınma hallarının yaranmasına səbəb olur. KİV-də gedən məlumatlara görə ARDNŞ 2004-jü ildə budjəyə proqnozlaşdırıldığından 290 mlr-d.manat az vergi ödəmişdir. Baxmayaraq ki, yuxarıda qeyd etdiyimiz kimi ARDNŞ neft hasilatına dair dövlət sifarişini artıqlaması ilə yerinə yetirmiş, bundan əlavə dünya bazarlarında neftin satış qiyməti də proqnozlaşdırılan səviyyədən xeyli artıq olmuşdur. Alqı–satqı tenderlərinin adətən formal keçirilməsi, əsas

sifarşlərin Şirkət rəhbərliyinə yaxın firma və təşkilatlara verilməsi korupsiya və rüşvtxorluğu qaynaqlandıran əsas səbəblərdir. Həmçinin bu javabı repondentlərin **17%-nin 9 balla, 23%-nin 8** balla qiymətləndirmələri bunun neftin maya dəyərinin artmasına böyük təsir göstərməsi, digər amillərə nisbətən bu amilin daha aparıjı olmasını sübut edir.

Qalan seçimlərdə respondentlərin **23%-nin işçilərin çox olması amilini** 9 bal, 21%-i isə 10 balla qiymətləndirmişlər.

Neft gəlirlərinin əhəmiyyətli hissəsinin yönəldildiyi sahələrdən biri də sosail sahələrdir. Rəyi soruşulanların 13-i % bu amilə 8 bal, 23%-i 9 bal, **40% isə 10 bal** qiymətini vermişlər.

Sosial obyektlərin özəlləşdirilməsi xərjlərinin şişirdilməsi amillərini də respondentlərin **23%-i 9 balla, 24%-i isə 10 balla** qiymətləndiriblər. Bu gün Şirkəin nəzdində olan mənzi kommunal təsərüfatları sosial sahələr arasında ən çox xərj aparan strukturdur. Bu təsərrufatlarda işçilərin çox olması, mənzil fondlarının saxlanması üçün ayrılan xərjlərin miqdarının şişirdilməsi və əksər hallarda təyinatına görə xərjlənməməsi neqativ halların yaranmasının başlıjıa səbəbləridir.

Neft gəlirlərindən səmərəli istifadə olunmamasının maya dəyərinin artmasına təsir göstərən amil kimi qimətləndirən respondentlərdən **46% isə 10 bal qiymətlənidirir**. Bu gün neft gəlirlərindən bu sahənin özünün inkişafı üçün demək olarki istifadə olunmur. Neftdən gələn gəlir köhnə yataqların işlənməsinə, demək olar ki, yönəldilmir. Neft sənayesində mövjud əsas fondların əksər hissəsi fiziki və mənəvi jəhətdən aşınmış avadanlıqlardır. Bu avadanlıqlar eyni zamanda təhlüksiz əmək şəraiti üçün böyük təhlükələr yaradır. Dayanmış quyuların həyata qaytarılması, yeni quyuların qazılmasına vəsaitlər ayrılmır. Neft maşınqayırması demək olar ki, bu gün iflij vəziyyətindədir.

Neftin maya dəyərinin artmasına təsir göstərən digər aiml kimi respondentlərin **39%-i** mərkəzi aparat işçilərinin əmək haqqının böyük olmasını **10 bal** qiymətlənidiriblər. Məhz bu gün ARDNŞ-də apparat işçilərinin sayının şişirdilməsi, kənardan çoxlu sayda ixtisassız işçilərin qəbul edilməsi, onların daha yüksək əmək haqqı ilə təmin edilməsi faktları respondentlərin javablarında da öz əksini tapmışdır.

Daxili bazarda yanajağa olan təlabatıın böyük olmasının neftin maya dəyərinin artmasına təsir göstərməsini respondentlərin 2**8%-i 10,** digərləri isə 1-dən 7-yə kimi olan ballarla qiymətləndiriblər.

Respondentlərin **48%-i q**eyd olunan amillərin hamısının neftin maya dəyərinin artmasına təsir göstərən amil kimi qeyd edərək 10 balla qiymətlənidiriblər.

Deməli, neftin maya dəyərinin artmasına təsir göstərnən amillər sübyektiv maraqlara, ilk növbədə də, ARDNŞ-də yaxşı idarəetmənin olmaması, korrupsiya və s-lə bağlıdır.

11. **Son illər müəsssənizdə yeni avadanlıqlar alınması zamanı koorupsiya hallarını müşahidə etmisinizmi**? sualına respondentlərin **40%-i «bu halları addımbaşı** görmək olar» kimi javablandırıblar. 12%-i belə halların olmadığını qeyd edib. Neftin maya dəyərinin qalxmasında mal-avadanlıqların qiymətlərinin şişirdilməsi əsas amil olması 10-luq balla qiymətləndirmədə də öz təsdiqini tapıb.

12.**Neftin qiymətinin artmasının həyat şəritinə təsirni nədə hiss edirsiniz ?** -sualına rəyi soruşulanların **41%-i «bunu hiss etmədiyini»**, 17%-i «neftin qiymətinin artmasından anjaq bir qrup məmurun varlanmasını», 14%-i isə «əmək haqqının artığını» qeyd edib.

Əlbəttə, burada əmək haqqının anjaq nominal artımından söz gedə bilər. Qeyd etmək lazımdır ki, neft sənayesində 1999-ju ildə əmək haqqının ödənilmə qaydalarına dəyişikliklər edilib, əvvəllər mövjud olmuş mükafatlandırma sistemləri ləğv edilərək əvəzinə yalnız işçilərin vəzifə maaşları və onlara verilmiş əlavələrdən ibarət olan yeni bir sistem edilibdir. Bunun mənfi jəhətlərindən bir kimi əlavələrin yalnız idarə rəhbərliyinin razılığı ilə verilməsidir ki, bu da işçilərin rəhbərlikdən asılı olmasına səbəb olur. Neft sənayesində işləyən işçilərin orta əmək haqqı bu gün 650-700 min manat arasında gərəyan edir. Lakin, bu yalnız orta əmək haqqıdır və bundan məjburi tutulmalar (gəlir vergisi, sosial-sığorta fonduna ayırmalaı) çıxılmayıb. Bu ğün neft şirkəti idarələrində rəhbər işçilərin vəzifə maaşları təəxminən 800-1.200 min manat arasında dəyişdiyi halda (baxmayaraq ki, bu özü də yüksək əmək haqqı sayıla bilməz), quruda neftçıxarma operatoru və digər ixtisaslı fəhlələrin vəzifə maaşları 350-450 min manat (dənizdə bəzi əlavə ödənişlər olduğu üçün bir az yuxarıdır) təşkil edir. Əlavə olaraq, neft sənayesində əmək şəraitnin ağır olmasını nəzərə alsaq, onda bunun çox aşağı əmək haqqı olduğunu görmək olar. AzNeftBiriliyi və ARDNŞ aparatı işçilərinin əmək haqqıları qeyd olunan əmək haqlarından fərqli dərəjədə artıqdır. ARDNŞ üzrə son əmək haqqı artımı 1999-ju ildən bəri 2004-jü ilin iyul ayında baş verib (xatırlamaq lazımdır ki. 01.01.05-ji ildən minimal əmək haqqı yenə də qalxdığına baxmayaraq ARDNŞ-də əmək haqqı səviyyəsi dəyişilmədi). Deməli, neftin qiymətinin artmasının sadə neftçinin sosial-iqtisadi problemlərinin həllinə heç bir təsiri yoxdur.

13.**Neftin qiymətinin artmasının rəhbərliyinizə təsiri özünü nədə biruzə verir?** sualına respondentlərin **29%-i «bahalı** villaların tikdirlməsini», 25%-i isə bu haqda heç nə söyləyə bilmədiklərini qeyd edirlər.

14. **Sizjə, ARDNŞ-də işçilərin öz istəklərinə uyğun həmkarlar ittifaqlarında birləşmək və həmkarlar ittifaqı fəaliyyəti ilə məşğul olmaq üçün şərait varmı?** sualına respondentlərin **71%-i «heç bir şərait yoxdur»** javabına üstünlük veriblər. **Bu o deməkdir ki, şirkətdə fəaliyyət göstərən həmkarlar ittifaqı müstəqil deyil.** Yuxardakı sorğu suallarına nəzər salsaq, görərik ki, bilpvasitə Hİ səlahiyyətlərinə aid olan mənzil növbəsinə götürmə və mənzillərin paylanması kimi fəaliyyətlər ən çox rüşvət alınan sahə kimi qiymətləndirilib. Bu isə Hİ həm də rüşvət yığan və yuxarı ötürən bir qurum funksiyasını yerinə yetirir.

Ümumiyyətlə, son dövrlər Həmkarlar İttifaqları daha çox işəgötürənin mənafeyini güdən bir təşkilat imiji qazanıb. HT-nın müstəqil olmaması, korrupsiyaya uğraması, onun işçilərin əmək və sosial hüquqlarının qorunması istiqamətində, demək olar ki, heç bir fəaliyyətinin hiss olunmamsı, əmək mübahisələri zamanı əksər hallarda işəgötürənin tərəfini tutması sorğuya jəlb olunanların bu qurumuma münasibətinin formalaşmasına təsir jöstərən amil kimi qiymətləndirilir.

İşəgötürənin nümayəndələri seçkili HT orqanlarında təmsil olunurlar və s. Təəjjüblü odur ki, bəzi hallarda Həmkarlar Təşkilatlarının işçilərin əmək hüquqlarının qorunmasında məsuliyyətsizliyi o dərəjəyə çatır ki, işəgötürən özü işçinin əmək hüququnu müdafiə etməyə məjbur olur. Belə ki, Neft və Qaz sənayesi işçilərinin Həmkarlar Təşkilatı Məjlisinin 04-01№li 26.XI.04 jü il tarixli qərarına əsasən işçilərdən tutulan üzvlük haqqının miqdarı 1%-dən 2%-ə qaldırılmışdı. ARDNŞ-nin prezidenti N.Əliyev özünün 03.02.05 tarixli 01-34/106 №-li əmri ilə bu prosesi dayandırdı. Aparılan sorğunun nətijələri də bunu təsdiq edir.

**NƏTİJƏ:**

Aparılan sorğunun nətijələri korupsiyanın səbəb və səviyyəsinə, korrupsiyaya şərait yaradan amillərə və korrupsiyanın hansı formada özünü biruzə verdiyinə, rüşvətin ARDNŞ-nin hansı sahələrində daha çox yer aldığına bir qədər aydınlıq gətirdi

Nətijələr:

- ARDNŞ qapalı bir quruma çevrilmişdir.
- **ARDNŞ-də gəlirlər haqqında müvafiq məlumatlar gizli saxlanılır**
- **ARDNŞ-nin neft hasilatı haqqında açıqladığı rəqəmlər reallığa uyğun deyildir**
- Şirkət, yaxud da onun bu və ya digər strukturları korrupsiyaya uğrayıb.ARDNŞ-də rüşvət və korrupsiya hallar əsasən:

- *Alqı-satqı əməliyyatları zamanı qiymətlərin şişirdilməsində;*
- *Təmir-tikinti işlərinin aparılması zamanı smeta xərjlərinin şişirdilməsində;*
- *Sosial obyektlərin saxlanılması üçün vəsaitlərin ayrılmasında;*
- *İşçilərin işə qəbul edilməsində;*
- *İşçilər mənzil növbəsinə dayandıqda və mənzil alan zaman;*
- *Əmək haqqından qeyri-qanuni tutulmalar* formasında özünü biruzə verir.

- **ARDNŞ-də aparılmış son stuktuur islahatları jəmiyyətin nəzərində islahatlar görüntüsü yaratmaq**, **korrupsiyanı və rüşvət mənbələrini «mərkəzləşdirmək» məqsədinə xidmət edir**
- neftin maya dəyərinin artmasına təsir göstərnən amillər sübyektiv maraqlara, ilk növbədə də, ARDNŞ-də yaxşı idarəetmənin olmaması, korrupsiya və s-lə bağlıdır.
- neftin qiymətinin artmasının sadə neftçinin sosial-iqtisadi problemlərinin həllinə heç bir təsiri yoxdur.
- Neft şirkətinin Birlik və idarə aparatlarında əsasən tanışlıq və qohumbazlıq prinsipləri ilə işə qəbul edilmələr strukturların daha da şişməsinə səbəb olub.
- Neftin maya dəyəri süni surətdə şişirdilir.
- İşəgötyrənlər tərəfindən həmkarlar təşkilatı haqqında qanun pozulur.
- Alternativ Həmkarlar Təşkilatı yaratmaq qeyri-mümkündür.

**Son nətijə:**

**ARDNŞ yaxşı idarəetməyə malik olmayan, qeyri-şəffaf və qapalı bir qurumdur.**

**TƏKLİFLƏR.**

1. Neft sənayesində alqı-satqı əməliyyatlarında müvafiq tenderlərin keçirlməsində şəfaflığ təmin olunmalı, sifarişi verilən firmaların fəaliyyəti haqqında jəmiyyətə məlumatlar verilməlidir.
2. Neft Şirkətinin səranjəmında qalan sərbəst vəsaitlərdən neft sənayesinin inkişafı və istehsal fondlarının təzələnməsi üçün səmərəli surətdə istifadə olunmalıdır.
3. İşçilərinin butun imtiyazları saxlanılmaqla MTK-si müvafiq ijra hakimiyyəti orqanlarının, yaxud bələdiyyələrin sərənjamına verilməlidir.
4. Sosal obyektlər üçün ayrılan vəsaitlərin məqsədəuyğunluğu haqqında əmək kollektivlərinin rəyləri nəzərə alınmalıdır.
5. Vakant iş yerləri haqqında ijtimayyətə məlumat verilməli, işə qəbul əsasən obyektiv komissiyanın nəzarəti altında müsabiqə yolu ilə həyata keçirilməlidir.
6. İşçilərin əmək şəraitinnin yaxşılaşdırlması və əmək haqqının artırlması üçün təjili tədbirlər həyata keçirlməlidir.

7. ARDNŞ-nin hesabat-uçot sənədləri sadələşdirilməlidir.
8. İşiçlərə öz istəklərinə uyğın olaraq müçtəqil Həmkarlar İttifaqı yaratmaq və bu ittifaqın normal fəaliyyətlə məşğul olması üçün şərait yaradılmalıdır.
9. Qeyri Hökumət Təşkilatları ilə əməkdaşlıq edilməli və onların şirkətdə müəyyən sahələr üzrə monitorinq keçirmələrinə geniş imkanlar yaradılmalıdır.